UOT: 331:336.531.2
https://doi.org/10.30546/3006-0346.2025.3.87.597

# DÜNYA ÖLKƏLƏRİNDƏ İNSAN KAPİTALINDAN SƏMƏRƏLİ İSTİFADƏ EDİLMƏSİNİN AKTUAL PRİORİTETLƏRİ

**AYSEL BƏDƏLZADƏ**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı*
*E-mail: ayselbedelzade9@gmail.com*

Qeyd edək ki, müasir şəraitdə bütün dünyada iqtisadiyyatın və sosial həyatın davamlı intellektuallaşması prosesi gedir. Belə bir şəraitdə insan kapitalı böyük önəm daşıyır və yeni biliklərin, səriştələrin, bacarıqların və praktiki təcrübənin yaradılmasında ifadə olunan yığılma xüsusiyyətinə malikdir. Bu, o deməkdir ki, insan kapitalının dəyəri yaradıcı işləri yerinə yetirmək bacarığında təcəssüm olunan insan resurslarının bilik, təcrübə və bacarıqları kimi keyfiyyətlər məcmusu ilə müəyyənləşdirilir. Milli sərvətdə hökmranlıq edən insan kapitalı ETT-nin və iqtisadi inkişafın sürətini müəyyənləşdirir. İnsan kapitalı bazar iqtisadiyyatında vacib rol oynayır, ölkənin rəqabət qabiliyyətini önəmli dərəcədə artırır [1, s.169].

Məlumdur ki, insan kapitalının idarə edilməsi əsas şərtdir ki, onun xüsusiyyətləri innovativ inkişaf yoluna qədəm qoyarkən dövlətin strateji vəzifələrinin həlli ilə sıx bağlıdır. İnsan kapitalının həyat dövrü iki əsas mərhələni əhatə edir: formalaşma və istifadə. İnsan kapitalı insanın həyatı boyu formalaşdığından, bu proses müxtəlif mərhələlərdə baş verir və hər birində onun inkişafına investisiyalar qoyulur. İnsan kapitalının idarə edilməsi sahəsində siyasətin reallaşdırılması da innovativ inkişafın ehtiyacları nəzərə alınmaqla müxtəlif mərhələlərdə baş verir. İnsan kapitalının keyfiyyəti ilə dövlətin innovativ inkişafı arasında əlaqə müxtəlif sahələrdə müşahidə oluna bilər.

Qloballaşmanın indiki mərhələsində yüksək keyfiyyətli insan kapitalına malik olan ölkələrin digər ölkələrlə müqayisədə bir çox üstünlükləri var. Yüksək keyfiyyətli insan kapitalı dedikdə, ölkənin yüksək intellektual səviyyəsinə və yüksək peşəkar kadr potensialına malik olması nəzərdə tutulur ki, bu da onun iqtisadi sisteminin dünya bazarında rəqabət qabiliyyətinin gücləndirilməsinə xidmət edir. Müasir qloballaşma dövründə istənilən ölkənin iqtisadi yüksəlişi dolayısı ilə insan kapitalının həcmi və keyfiyyəti ilə bağlıdır [2, s.12]. Bunlarla bərabər, yüksək keyfiyyətli insan kapitalının formalaşmasına təkan verən və ya maneə törədən bir sıra amilləri müəyyənləşdirmək olar: ölkənin iqtisadi inkişaf səviyyəsi; demoqrafik vəziyyət və gözlənilən ömür uzunluğu; əhalinin gəlir səviyyəsi; ölkədə təhsil və səhiyyənin keyfiyyəti və əlçatanlığı; cəmiyyətdə azadlıq və demokratiyanın səviyyəsi; ölkədə ətraf mühitin vəziyyəti; insan kapitalına investisiyanın həcmi və müddəti; ictimai institutların və vətəndaş cəmiyyətinin inkişaf səviyyəsi. Məhz insan kapitalının formalaşmasında bu amillər ölkədə insan inkişafı vəziyyətinin cari göstəricilərini müəyyənləşdirmək və bu əsasda insan inkişafı səviyyəsinə görə ölkələrin reytinqlərini tərtib edərkən alimlərin tədqiqat obyektidir [3, s.83-84].

Dövlətin səmərəliliyinin, eləcə də ölkə iqtisadiyyatının kəmiyyət və keyfiyyət göstəricilərinin, o cümlədən əhalinin yaşayış səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi insan kapitalının səmərəli istifadəsindən asılıdır. İnsan kapitalı qlobal iqtisadiyyatın inkişafına töhfə verən təcrübə, şəxsi keyfiyyətlər, təhsil və səriştələrin məcmusudur. Ən rəqabətli insan kapitalı Çin, Yaponiya, Hindistan, Cənubi Koreya kimi ölkələrdədir. Beynəlxalq təcrübənin tədqiqindən görünür ki, insan kapitalına investisiya qoyulmadan iqtisadi artıma nail olmaq mümkün deyil. İnsan kapitalından səmərəli istifadənin bariz nümunəsi Almaniya, Yaponiya, Cənubi Koreya, Sinqapur kimi ölkələrdir, çünki onların kifayət qədər təbii ehtiyatları yoxdur, lakin bu ölkələr inkişaf etdirilir və hər il iqtisadiyyata daha çox yeni innovativ məhsullar və yanaşmalar tətbiq edirlər. Almaniya qlobal iqtisadiyyatın əsas oyunçularından biri olmaqla, iqtisadi inkişaf səviyyəsinə, iqtisadi potensialının miqyasına, dünya istehsalındakı payına, BƏB-də iştirak dərəcəsinə və digər iqtisadi göstəricilərə görə dünyanın ən inkişaf etmiş ölkələrindən biridir. Almaniyada da insan kapitalı yüksək səviyyədə inkişaf edir. Almaniyada təhsilə ayrılan xərclər hərbi ehtiyaclara ayrılan xərclərdən 2 dəfə, insan inkişafına yönəldilən bütün investisiyalar isə hərbi xərclərdən 15-20 dəfə çoxdur.

Yaponiya uzun müddətdir ki, bir çox sənaye sahələrində yüksək səviyyəli insan kapitalına malikdir. İnsan kapitalının Yaponiya iqtisadiyyatının böyüməsinə təsiri çox əhəmiyyətlidir. İntellektual fəaliyyəti ilə tanınan ölkədə insan kapitalının iqti-

sadi artıma da ciddi təsiri var. Bu ölkədə təhsil səviyyəsi və gözlənilən ömür də daxil olmaqla, insan kapitalı həmişə yüksək səviyyədə olub. Yaponiyada həmin kapitalın inkişafı dövlət tərəfindən dəstəklənən informasiya texnologiyaları inqilabının prioritet sahəsi hesab olunur. Yaponiya təhsil, səhiyyə və sosial təminat üçün güclü dövlət dəstəyi sistemi yaratmışdır. Ölkənin unikallığı ondadır ki, ömürlük məşğulluq sistemi mövcuddur. Hər şey işin insana uyğunlaşdırılması, ən əlverişli iş şəraitinin yaradılması, insanı diqqət və qayğı ilə əhatə etməsi üçün edilir. Yaponlar hesab edirlər ki, istənilən müəssisədə əsas məhsuldar qüvvə işçidir, onun intellektual qabiliyyəti, yaradıcı təşəbbüskarlığı və fədakarlığıdır [4, s.107]. Bu ölkədə insan kapitalının inkişafı rəqəmsal inqilabın prioritet istiqaməti hesab olunur. Burada həmin kapitalın inkişaf səviyyəsi, o cümlədən təhsil səviyyəsi və sağlam ömür uzunluğu həmişə yüksək olub. Yaponiyanın təbii ehtiyatları çox məhduddur, ona görə insan kapitalının inkişafı onun iqtisadi səmərəliliyi və bütövlükdə ölkənin inkişafı baxımından çox vacib amildir. Yaponiyada təhsilə dövlət dəstəyi sistemi çox yüksək səviyyədədir, sosial təminat və səhiyyə sistemləri də diqqətdən kənarda qalmır.

Yaponiyada ömürlük məşğulluq sistemi vardır ki, bu, insan kapitalının formalaşmasına, toplanmasına və qorunub saxlanmasına yönəlib. Yapon işçiləri ömürlük zəmanətli işə malikdirlər və maaşlarının 30%-i şirkətin mənfəətindən asılı olduğundan, yapon işçisi öz təşkilatının hər bir nailiyyətində maraqlıdır. Avadanlıq və texnologiyaların daim yenilənməsi bu sahədə biliklərin, işçilərin ixtisasının artırılmasını və yenidən hazırlanmasını tələb edir. Əksər hallarda, Yaponiyada bir işçinin yenidən hazırlanması onu əvəz etməkdən daha sərfəlidir, çünki bir mühəndisin yenidən hazırlanmasının dəyəri yeni işçinin axtarışı, işə götürülməsi, öyrədilməsi və uyğunlaşdırılmasından üç dəfə azdır. Yapon təşkilatları hər 1,5-2 ildən bir kadr rotasiyasını reallaşdırırlar, hər bir işçini hərtərəfli inkişaf etdirməyə, ona sərmayə qoymağa, yeni bacarıqlar öyrətməyə, peşəkar və karyera yüksəlişini təmin etməyə çalışırlar. Bu, onu nəzərdə tutur ki, Yaponiyada biliyin sürətlə qocalması səbəbindən işçilər hər 1,5-2 ildən bir yenidən hazırlanır və işçilər ömürlük işə götürülür. Burada hər bir insan diqqət və qayğı ilə əhatə olunub.

İnsan kapitalından səmərəli istifadənin formalaşdırılması sahəsində Cənubi Koreya təcrübəsi son onilliklərdə əldə olunan nailiyyətlər baxımından cəlbedici hesab olunur. Məsələn, bu ölkədə qlobal iqtisadi çağırışlar şəraitində dövlətin iqtisadi siyasətinin tərkib hissələrindən ən əsası insan kapitalından səmərəli istifadə mexanizmlərinin formalaşdırılması istiqamətində effektli tədbirlərin və konseptual yanaşmaların təmin edilməsidir. Habelə, Cənubi Koreya son illər İKT-nin inkişafına görə dünya lideri olub. Ölkədə təhsilin səviyyəsinə xüsusi diqqət yetirilir və bu sahəyə ardıcıl strateji yanaşmalar təmin edilir. Cənubi Koreyada uşaq və yeniyetmələrin təhsilinə və müasir biliklərə yiyələnməsinə yanaşmalar təkmilləşdirməklə yanaşı, intellektual inkişafa, yüksək bacarıqlara, peşəkar səviyyəyə, o cümlədən çoxşaxəli və işə yönümlü bacarıqlara yiyələnməyə kifayət qədər investisiya yönəldilir. Ümumiyyətlə, Cənubi Koreya insan kapitalına və onun təhsil komponentinə investisiyalara üstünlük verib ki, bu da ona bilik iqtisadiyyatı modellərini yaratmağa imkan verib. Cənubi Koreyada bu kapitalın formalaşmasının əsasını əhalinin yüksək təhsil və mədəni səviyyəsi təşkil edir. Ölkə rəhbərliyi aydın başa düşür ki, təkcə istehsalın deyil, bütövlükdə ölkənin uğurlu iqtisadi inkişafının ilkin şərtləri məhz təhsilin və elmin inkişafıdır. Dövlət təhsil müəssisələri vergi ödəməkdən azad edilir, özəl təhsil müəssisələri isə təhsil prosesinin təmin edilməsinə yönəldiyi üçün vergi ödəmirlər. Cənubi Koreyada iri korporasiyaların ianələri hesabına elmin inkişafına qoyulan özəl investisiyalar həcminə görə dövlət investisiyalarından heç də geri qalmır. Cənubi Koreyanın uğurlu inkişafı özəl sahibkarlıq, yüksək keyfiyyətli məhsullarla və innovasiya ilə müəyyənləşdirilir.

Təhsil, səhiyyə, elm, mədəniyyət sahələrinin inkişafına özəl kapitalın fəal şəkildə cəlb edilməsi üzrə ABŞ və Cənubi Koreyanın təcrübəsi diqqətə layiqdir. Bu gün ABŞ və Almaniya təcrübəsinə əsaslanaraq təşkilatlarda, idarələrdə, müəssisələrdə kadrların daimi rotasiyasının reallaşdırılması çox vacibdir. Universitetlər və şirkətlər arasında mütəxəssislərin birgə multidissiplinar hazırlığı proqramının hazırlanması və reallaşdırılması üzrə Almaniya təcrübəsi maraq doğurur. ABŞ və digər ölkələrin təcrübəsinə əsaslanaraq, məzunların peşəkar karyeraları ilə bağlı davamlı tədqiqatların aparılması da eyni dərəcədə vacibdir [5, s.112]. İnsan kapitalının formalaşdırılması və inkişafı ilə bağlı məsələlər dünyanın iqtisadi cəhətdən güclü ölkələrindən biri olan ABŞ-da hökumət tərəfindən diqqət mərkəzində saxlanılır. Belə ki, insan kapita-

lının inkişafında önəmli rol oynayan elmin inkişafına ÜDM-in təxminən 2,5-3,0%-i, səhiyyənin maddi-texniki bazasının gücləndirilməsinə 15,0-17,0%-i həcmində maliyyə resursları ayrılır [6, s.142].

ABŞ elm və yüksək texnologiyanın demək olar ki, bütün sahələrində, eləcə də iqtisadiyyatda dünyanın ən yaxşı mütəxəssislərinə malikdir. ABŞ-da unikal təhsil mədəniyyəti formalaşıb, universitetlər əmək bazarının müəyyən peşələrə olan ehtiyaclarını və gedən dəyişiklikləri izləmək üçün onunla qarşılıqlı əlaqə qurmuşlar. Məzunların hazırlanması və gələcək həyata uyğunlaşdırılması məqsədilə tədris proqramlarının keyfiyyəti qiymətləndirilir, məzunların peşəkar karyerasına nəzarət edilir. ABŞ dövlətin əsas üstünlüklərindən biri olan və inkişaf amili kimi özünü göstərən insan kapitalının formalaşması və inkişafı baxımından əlverişli şərait yaratmışdır.

İnsan kapitalına investisiyaların təkmilləşdirilməsi üzrə tədbirlərin hazırlanması üçün İİİ-yə görə dünya ölkələri reytinqində son illər ilk üçlükdə yer tutan İsveçrənin təcrübəsinə nəzər salaq. İlkin olaraq diqqət təhsil sisteminə yönəldək. İsveçrədə məktəbəqədər təhsil icbari deyil və gəlir səviyyəsindən asılı olaraq qismən dövlət, qismən də valideynlər tərəfindən maliyyələşdirilir. Məktəb təhsili seçmək üçün bir sıra təhsil proqramları mövcuddur. Ölkədə ali təhsil ödənişlidir, bakalavr, magistratura və doktorantura təhsili olmaqla üç pilləlidir. Habelə İsveçrə universitetlərinin diplomları bütün dünyada yüksək qiymətləndirilir. Biznes, turizm və qonaqpərvərlik sektoru ali təhsilin ən güclü sahələri kimi tanınır. Ölkə əhalisinin əksəriyyəti turizm və xidmət sektorunda çalışır. Səhiyyə dövlət və özəl strukturların sintezi ilə təmsil olunur. Səhiyyə büdcəsi üç mənbədən formalaşır: icbari tibbi sığortanın vəsaitləri; birbaşa hökumətin maliyyələşdirilməsi; sağlamlıq və həyat üçün sosial sığortanın digər növləri (bədbəxt hadisələr, qocalıq, əlillik, hərbi sığorta) [7, s.102].

Son illər İsveçrə dünya ölkələri üzrə gözlənilən ömür uzunluğu və səhiyyəyə ayrılan xərclərin ÜDM-də xüsusi çəkisinə görə reytinq sıralamasında ilk onluqdadır. İsveçrə yüksək vergi cəlbediciliyinə malikdir, çünki vergi dərəcələri fiziki və hüquqi şəxslər üçün aşağıdır. İsveçrə sabit valyuta, liberal əmək qanunları, az sayda qanuni məhdudiyyətlər və sosial sabitlik ilə xarakterizə olunur. İsveçrə müəssisələri tədqiqat və inkişafa sərmayə qoyaraq məhsullarını, xidmətlərini, proseslərini daim təkmilləşdirir və əmək mübahisələri sosial tərəfdaşlar tərəfindən həll edilir. Konfederasiya iş motivasiyasına görə Norveç və Danimarkadan sonra dünyada üçüncü yerdədir. Beləliklə, İsveçrə əhalini yüksək həyat səviyyəsi ilə təmin edir.

Dünyanın ən böyük insan kapitalına malik ölkələrindən biri Çindir. Çin bu sahədə digər ölkələrə nisbətən böyük üstünlüyə malikdir. Çinin ən önəmli inkişaf strategiyalarından biri məhz insan kapitalından maksimum və səmərəli istifadə etməkdir. Bunlara baxmayaraq, bu ölkədə insan kapitalının inkişafına böyük həcmdə investisiyalar tələb olunur. Son illərdə Çin hökuməti insan kapitalının ölkə iqtisadiyyatının inkişafında insan kapitalının önəmli rol oynaya bildiyini əsas götürərək, elmə ayırdığı vəsaitin həcmini xeyli artırmışdır. İnvestisiyaların artması həmin kapitalın toplanmasına və artmasına, eləcə də onun yeni inkişaf mərhələsinə qədəm qoymasına kömək edir.

Deməli, bütün dünyada insan kapitalının inkişafına və keyfiyyətinin yüksəldilməsinə ehtiyac var, onun əhəmiyyəti və effektivliyi çoxdan təsdiq olunub. Lakin hər bir ölkədə belə bir kapitalın özünəməxsus xüsusiyyətləri və problemləri var. Beləliklə, beynəlxalq təcrübə göstərdi ki, müasir dünyada bir ölkənin iqtisadi yüksəlişi üçün belə bir kapitaldan istifadənin səmərəliliyinə, onun dəstəklənməsinə və innovativ texnologiyaların inkişafına diqqət yetirilməlidir. Bütün bunlar isə həmin kapitala investisiya qoymadan mümkün deyil. İnsan kapitalına investisiya qoyuluşu sahəsində vəziyyəti yaxşılaşdırmaq üçün təkliflər verə bilərik: 1. Düşünülmüş miqrasiya siyasətinin aparılması. Yüksək, ixtisaslı işçilərin ölkəyə daxil olmasına üstünlük verilməlidir. Əvvəllər ölkəni tərk etmiş görkəmli alimlərin ölkəyə qayıtması stimullaşdırılmalı, yenilərinin getməsinin qarşısının alınması üçün əlavə tədbirlər görülməlidir. 2. Xarici tələbələri ölkəmizin universitetlərində təhsil almağa daha geniş cəlb edilməsi, birgə tələbə mübadiləsi proqramlarının yaradılması. 3. Əhalinin mədəni səviyyəsinin yüksəldilməsi üçün mədəni-kütləvi tədbirlərin (konsertlər, idman yarışları və s.) keçirilməsi zamanı daha demokratik qiymət siyasətinin aparılmasının təmin edilməsi. 4. İnsan kapitalına investisiya qoyuluşunda xarici təcrübədən geniş istifadə edilməsi. 5. Öz dərman istehsalımızı yaratmaqla, yüksəkixtisaslı tibbi kadrlarla təmin etməklə, qidalanmanın keyfiyyətini yüksəltməklə, idmanı inkişaf etdirməklə əhalinin, o cümlədən əmək

qabiliyyətli yaşda olanların yüksək ömür müddətini və həyat keyfiyyətini təmin edən əlçatan səhiyyə və sosial təminat sisteminin yaradılması.

## YEKUN

Beləliklə, beynəlxalq təcrübə insan kapitalının ETT-nin artmasının və ölkənin iqtisadi inkişafının əsas amili olduğunu göstərir. İnsan kapitalının formalaşmasında və səmərəli istifadəsində beynəlxalq təcrübənin təhlili bizə müəyyən təsirli tədbirləri müəyyənləşdirməyə imkan verir:

- ✓ təhsilin, səhiyyənin və bütövlükdə sosial sahənin maliyyələşdirilməsi;
- ✓ universitetlərlə müəssisələr arasında mütəxəssis hazırlığı ilə bağlı proqramların hazırlanması və reallaşdırılması;
- ✓ mütəxəssislər hazırlanarkən müəssisələrin tələblərinin əsas götürülməsi;
- ✓ təcrübə yönümlü mütəxəssis hazırlığının reallaşdırılması;
- ✓ intensiv şəkildə işçilərin yenidən hazırlanması və onların ixtisaslarının daha da artırılması;
- ✓ ölkənin elm potensialının gücləndirilməsi;
- ✓ elmi tədqiqatların inkişafını stimullaşdırmaq məqsədilə vergi güzəştlərinin tətbiqi və qrantların verilməsi;
- ✓ elmi tədqiqatların aparılması məqsədilə əlverişli infrastrukturun formalaşdırılması;
- ✓ elmi-tədqiqat institutlarının və mərkəzlərinin yaradılması və onların fəaliyyətlərinin dəstəklənməsi;
- ✓ biznes imkanları və yeni iş yerləri yaratmaq məqsədilə intellektual və rəqəmsal texnologiyaların potensialından tam gücü ilə istifadə edilməsi;
- ✓ rəqəmsal mexanizmlərini tətbiqi yolu ilə insan kapitalının inkişafına yeni imkanların yaradılması;
- ✓ daha səmərəli biznes prosesləri və dövlət dəstəyi vasitəsilə məhsuldarlığın artırılması və s.

**Açar sözlər:** *insan kapitalı, dünya ölkələri, insan kapitalından səmərəli istifadə modelləri, insan kapitalından istifadənin aktual prioritetləri, insan kapitalından istifadə problemləri, insan kapitalından istifadə üzrə beynəlxalq təcrübə, insan resursları.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Мусатова, И.В. Роль человеческого капитала в современной экономике: ключевые аспекты и вызовы / И.В. Мусатова, А.А. Кочубей, Д.А. Штода // Тенденции и технологии управления процессами и системами в современной экономике: Материалы III Всероссийской конференции, Орёл, 15–18 мая 2024. – С. 163-170.*

*2. Bağırlı, L.B. İnsan kapitalı Azərbaycanda sosial inkişafın əsas amili kimi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2021, 28 s.*

*3. Шестакова, О.Г., Скубрий, Е.В., Левицкий, М.Л. Мировой опыт формирования и развития человеческого капитала в современных условиях. Вестник МГПУ ■ Серия «Экономика», 2019. № 2. - С.80-84.*

*4. Вельбой, Т.С. Особенности формирования человеческого капитала в Китае и Японии / Т.С. Вельбой // Сельскохозяйственные науки: материалы 57-й Международной научной студенческой конференции, Новосибирск, 14–19 апреля 2019. – С. 106-107.*

*5. Тамахина, Л.Ф. Зарубежный опыт инвестирования в человеческий капитал / Л.Ф. Тамахина, Л.М. Хагажеева // Современные тенденции развития науки и технологий. – 2016. – № 10-10. – С. 111-113.*

*6. Abdullayev, L.İ. İnsan kapitalının formalaşması və inkişafı proseslərinin idarəetmə texanizmlərinin təkmilləşdirilməsi yolları. Audit № 3, Cild 25, 2019, s.139-152.*

*7. Богдан, Я.А. Опыт Швейцарии в развитии и сохранении человеческого капитала / Я.А. Богдан // Актуальные вопросы и перспективы развития науки, техники и технологии: материалы Международной научно-практической конференции, Чистополь, 27 марта 2020. – С. 100-103.*

**АЙСЕЛЬ БАДАЛЗАДЕ,**
***Докторант Азербайджанского государственного университета нефти и промышленности,***
***Баку, Азербайджан***
***E-mail: ayselbedelzade9@gmail.com***

**Актуальные приоритеты эффективного использования человеческого капитала в странах мира**

**РЕЗЮМЕ**

В статье рассматриваются современные приоритеты эффективного использования чело-

вического капитала в группе стран мира. Были рассмотрены модели и практики повышения эффективности использования человеческого капитала. Приведены основы политики, формируемой и проводимой государством в отношении человеческого капитала. Рассмотрены конкретные механизмы эффективного и продуктивного использования человеческого капитала в ряде стран мира. Обоснована важность повышения эффективности использования человеческого капитала в соответствии с глобальными вызовами. Сделаны обобщения по проблемам и перспективам применения прогрессивных механизмы использования человеческого капитала в странах мира в новых условиях.

**Ключевые слова:** *человеческий капитал, страны мира, модели эффективного использования человеческого капитала, современные приоритеты использования человеческого капитала, проблемы использования человеческого капитала, международный опыт использования человеческого капитала, человеческие ресурсы.*

**AYSEL BADALZADE,**
***Doctoral student of Azerbaijan State Oil and Industry University, Baku, Azerbaijan***
***E-mail: ayselbedelzade9@gmail.com***

**Current priorities for the effective use of human capital in countries around the world**

**SUMMARY**

The article examines the current priorities of the effective use of human capital in a group of countries around the world. Models and experience of increasing the efficiency of the use of human capital are examined. The foundations of the policy formulated and pursued by the state regarding human capital are given. Mechanisms for the effective and productive use of human capital are given in a number of countries around the world. The importance of increasing the efficiency of the use of human capital in accordance with global challenges is substantiated. Generalizations are made on the problems and prospects of applying progressive experience in the use of human capital in countries around the world in new conditions.

**Keywords:** *human capital, countries of the world, models of efficient use of human capital, current priorities of human capital use, problems of human capital use, international experience in human capital use, human resources.*